# Çoban yastığı

Çayırlı küçələrin qır asfalt altında
bağrı çatlamamışdı hələ...
Açıq səma altında canı
bərk uşaqlar idik biz...

Arzular göylə getmirdi onda...
Sevinclər bizi darıxmağın yönünə
buraxmırdı...

Daş piltələrin altında qaldı
sənə dərəcəyim çoban yastığı...

***

Buynuzlu suallar asılır,
allahın açıq qapısının
dəstəyindən...

Qara nöqtələr
boşluğa düşür,
allahın sonsuzluğunda...



Şagirdlərin dil sürüşməsi zamanı
müəllimə ana dedikləri vaxtlar idi...
Hələ tanrının nemətlərinə və işinə
insan niyyəti qarışmamışdı...

Tərəvəzlər torpağı sevirdi
Çörək tabaxlarından
evlərə bərəkət gülümsəyirdi...
Taxıl zəmilərinin nəğməsinə,
sərçələr oynayırdı göylərdə...

Yer üzündə quduz səslərdən
əsər əlamət yox idi...
Dodaqlardan çıxan kəlmələr
ruha əzab vermirdi əksinə cana yayılırdı...

Dəmir qapılara güvənmirdi adamlar...
Gecənin qaranlığını yara bilmirdi gur lampalar...
Düşüncələri pak edirdi hisli çıraqlar...

Ataları evlərə gətirən yollar da
həyətlərdən aydın görsənirdi...
Pak xəyallarımızı uzaq üfüqlərə
rahat göndərirdik...

Zövqlərin məhv olacağı
müharibə başladılmamışdı...
Atalarımızın bizə aldığı ayaqqabıları
əzməyə utanardı ayaqlarımız...

Göy üzünə səpələnmiş ulduzları
yaddan çıxardığımız günlərdən başladı
yuxuların göylərdə yoxa çıxması...

İşıq dirəkləri çoxaldıqca
şam ağacları toz içində boğuldu...
Düşüncələrə gur işıq doldu...

Adamların öldürdüyü təbiət ailəsinin
baş daşlarına çevrildi göydələn binalar...

Çapdığım izlərin yaddaşıdır,
boş qalan çiyinlərim...

Günəş, ekiz doğulacaq, mən,
zamandan soyuyanda...

Bizdən öndə gedənlər,
arxamızca gələnlər,
saatlar sındırıldı!

Suallar asdıq, allahın
açıq qapısından...

Hansı qapı açılacaq üzümüzə,
Başımıza nidalar yağanda...

# Zühur

Aldığım nəfəslərə yoluxub,
daraşır canıma qürub çağındakı
gördüyüm mənzərələr...

Evlərin divarlarına, hasarlarına,
pəncərələrinə qonur narıncı
darıxmaq rəngləri...

Bu yolların üstünün nəmi
çətin qurusun bu qış...

Sizlər necə də xəbərsizsiniz
bu ayaqlar üstündəkinin qəmindən,
ey allahın sığınacağındakı qara qarışqalar...

Bu gün də belə batdı ürəyimin dibində...
Yox bu gün o gülürdü və bilirdi
Axşam sevinc zühur edəcək
dodaqlarımızda...

**Savalan Abbasoğlu**

Türküstan.- 2020.- 1-7 dekabr. S. 23.